*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 48-53*

https://doi.org/10.62837/2025.10.48

**SEVİNC MƏMMƏDOVA**
*Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının dosenti*

# HENRİX BÖLL HEKAYƏLƏRİNDƏ MÜHARİBƏNİN İZLƏRİ

**Xülasə**

Henrix Böll XX əsr Alman ədəbiyyatının tanınmış simalarından biridir. O, Nobel mükafatı laureatı olmuş və Almaniyanın ictimaai həyatını qələmə alan yazıçı kimi tanınmışdır. Böll həm almanların, həm də digər xalqların hüquqları uğrunda mübarizə aparırdı. Onun əsərləri və ictimai fəaliyyəti Almaniyanın digər ölkələrlə əlaqələrinin möhkəmlənməsinə yardım etmişdir. Ədibin əsərləri 48 dildə tərcümə olunmuşdur. Böll yaradıcılığında kiçik hekayələr vasitəsilə dərin ictimai və siyasi problemləri göstərirdi. Müharibə və onun insan ruhuna vurduğu zərbələr onun əsas mövzularındandır. "Müharibə başlayanda" hekayəsində İkinci Dünya müharibəsinin başlanğıcı və məşum mühit təsvir olunur. Əsərdə qəhrəmanın dostu Leo ilk həlak olan əsgər kimi təqdim edilir. "Qatar vaxtında gəldi" romanında müharibənin fiziki və mənəvi təsirləri Andreas obrazı ilə göstərilir. Andreas Polşada Olqa adlı qadınla qısa görüşdə insanlığın hələ ölmədiyini hiss edir. Amma onun cəbhəyə qayıdışı və ölümü faciəvi sonluq yaradır. "Müharibə qurtaranda" hekayəsində müharibədən sonrakı dağıntılar və alman əsirlərin həyatı əks olunur. Böllün əsərlər

ində nasizmin təhlükəsi və militarizmin zərəri açıq göstərilir.

"Loenqrinin ölümü" hekayəsində uşaqların və ailələrin müharibə zamanı yaşadıqları faciələr təsvir olunur. Böll öz məktublarında müharibənin mənasızlığını və sevdiklərindən ayrılmanın ağrısını yazırdı. Yazıçının qəhrəmanları tez-tez qorxaq, çaşqın və vicdan əzabı çəkən insanlardır. O, müharibənin insanların mənəvi dayaqlarını sındırdığını göstərir. Böllün dili sadə, amma emosional və psixoloji dərinliyə malikdir. Onun əsərləri oxucunu müharibənin fəlakətlərini anlamağa və mənəvi bərpa yollarını axtarmağa dəvət edir.

**Açar sözlər:** Henrix Böll, müharibə, İkinci Dünya müharibəsi, hekayə, qəhrəman

XX əsr Alman ədəbiyyatında tanınmış simalardan da biri Henrix Bölldür. Nobel mükafatı laureatçısı Henrix Böll alman millətinin vicdan səsi olmaqla yanaşı, digər xalqların da hüquqları uğrunda mübarizə aparırdı. Alman şairi Sara Kirş Henrix Böll *"hər zaman müraciət oluna biləcək instansiya idi"* (7). Öz əsərləri, ictimai və siyasi fəaliyyəti ilə Böll Almaniyanın digər ölkələrlə əlaqələrinin möhkəmlənməsinə, İkinci Dünya Müharibəsindən sonra almanların Avropa xalqları arasında nüfuzlarını bərpa etmələrinə kömək etmişdir. Əsərlərinin 48 dildə tərcümə olunması, 1972-ci ildə Nobel mükafatına layiq olması ədibin dünya ədəbiyyatındakı yerini təcəssüm etdirir. Henrix Böll ədəbi janrın kiçik forması olan hekayələr ilə dərin ictimai, siyasi

fikirləri ortaya qoya bilirdi. Böllü müasirlərindən fərqləndirən onun yaradıcılığının çoxşaxəli olmasında idi. Henrix Böll özünün məqalələrindən ("Yaradıcılıq riski", 1956) birində qeyd edirdi ki, *yaradıcılığının ilk dövründə məhşur bir jurnala mövzu baxımından bir-birinin tam əksi olan iki kiçik hekayə gətirir və onların müxtəlifliyini izah edə bilmir* [5, s.141]. Belə mövzular sırasında müharibə və onun açdığı yaralar, yaratdığı duyğuları əks etdirən motivlər dayanır. 60-70-ci illərdə "Müharibə başlayanda", "Xəbər", "Mənim qəmli sifətim", "Çörəyin dadı" və bu kimi əsərlər yaradan sənətkarın ustalığı onda idi ki, yaşadığı dövrün fərdi-psixoloji vəziyyətini, ictimai hadisələri duyğular fonunda əks etdirə bilirdi. Böllü yazıçı kimi maraqlandıran müharibənin insanları fiziki cəhətdən deyil, həm də mənəvi, ruhi cəhətdən şikəst etməsi və bunları sözlərlə göstərmək, problemləri işıqlandırmaq idi. "Müharibə qurtaranda", "Yolçu, yolun düşsə Spa....", "Naməlum əsgər", "Loenqrinin ölümü", "Qatar vaxtında gəldi" və başqa əsərlərində müharibənin yaratdığı çətinlikləri, məhrumiyyətləri ilə yanaşı, xalqın qırılmaz əzmini, mənəvi güücünü görə bilərik. Ədib bu mövzuda yazdığı əsərlərdə açıq şəkildə nasist ideologiyasının bəşəriyyət üçün təhlükə olduğunu yazırdı. "Müharibə başlayanda" ("Als der Krieg ausbrach", 1961) hekayəsində İkinci Dünya müharibəsinin başlanğıcındakı vəziyyət və insan ruhuna etdiyi təsir əks olunmuşdur. Əsərdə insan ruhuna vurulan zərbə dərin psixoloji səviyyədə təsvir edilmişdir. Hekayədə hadisələr Almaniyada, 1939-cu ilin payızında cərəyan edir. Gənc kişi qəhrəmanın əsərdə adı çəkilmir. Cəbhəyə çağırılan bu insan hələ müharibənin nə demək olduğunu dərk etmir. Bu səbəbdən də onun içində qorxu və boşluq hissləri təzahür edir. Baş obraz getdiyi hər yerdə təşviş, hər kəsdə həyəcan sezir. İnsanlar sanki eyni duyğunu yaşayır: kimisi qəzəbli, kimisi həyəcanlı, kimisi isə heç nə anlamadan "vətənpərvərlik" şüarları səsləndirir. İnsanların sevinc hissini qəhrəman dəhşət içində qarşılayır, çünki o, fərqindədir ki, müharibənin başlanğıcı insanların və insanlığın sonudur. Hekayə boyu obrazın daxili monoloqu verilir: o, müharibəni insanın insana qarşı cinayəti hesab edir. Bu fikirləri məşhur fransız yazıçısı, eyni zamanda İkinci Dünya müharibəsi iştirakçısı Antuan de Sent Ekzüperi "Hərbi 35 təyyarəçi" əsərində görə bilərik: o, müharibə haqqında belə deyirdi: *"Müharibə rəşadət deyil, insanın insan tərəfindən qətlidir, zülmüdür. Müharibə baxışları gözlərdə, gülüşləri dodaqlarda dondurur. Ana-ataların belləri erkən bükülür. Lənət olsun müharibə törədənlərə!"* [6, s.172].

Bu əsərdə müharibənin dəhşətləri qəhrəmanının dostu Leo ilə münasibəti zəminində daha aydın görünür. Gənclərin hər birinin arzuları vardır: ailə qurmaq, işləmək və s. Bu xəbəri eşidən kimi Leonun üzündəki məsumluq yox olur, çünki o da müharibənin dəhşətlərini anlayır. Elə müharibə ilk günlərindən öz acı nəticəsini göstərməyə başlayır: Leo alayın ilk həlak olan əsgəri kimi siyahıya düşür.

"Qatar vaxtında gəldi" ("Der Zug war pünktlich", 1949) əsəri də dərin mənalı anti-müharibə romanlarındandır. Bu hekayədə müharibənin ağırlığı, açdığı yaralar Andreas obrazının simasında öz əksini tapmışdır. Əsərdə nasisizm də pislənir.

Andreas alman olmasına baxmayaraq, yəhudilərə nifrət etmir, bununla belə onlar üçün dua edir. Onunla eyni vaqonda olan əsgərlərin bəziləri nasist ideologiyasına sadiq "fürer" tərəfdarı olsalar da, Andreas onlara acıyır. "Qələbə bizimlədir" deyən əsgərlərə nifrətlə yanaşır. Ancaq bu nifrətinə görə Allahdan bağışlanması üçün əfv diləyir. Hadisələr İkinci Dünya müharibəsi dövründə baş verir. Əsərin baş obrazı Andreasdır. Gənc alman əsgər Polşaya qatarla göndərilir. Bu əsərdə "qatar" ölümü simvolizə edir. Bu simvol əsərin fəlsəfi və psixoloji dərinliyini anlamaq üçün açar rolunu oynayır. Qatar həm də Andreasın daxili yolçuluğunu həyata keçirir. Andreasın daxili dünyası əsərin əsas mərkəzindədir. O, müharibənin son mərhələsində artıq öz ölümünün vacibliyini başa düşür. Qatarın hər dayanacağında müxtəlif insanlarla rastlaşır — rahib, əsgərlər, qadınlar — və bu qısa görüşlərdə həyat, günah, günahsızlıq, iman və ölüm haqqında düşünür. Əsərdə insanların həm mənəvi, həm də fiziki iztirabları bir ustalıqla təsvir olunmuşdur. Andreasla eyni vaqonda olan Villi adlı bir zabitin həyatı fonunda dəhşətli həqiqətlər görürürük: O, müharibəyə gedir, bir həftəlik məzuniyyət alıb ailəsinin yanına qayıdanda həyat yoldaşının əxlaqsızlıqla məşğul olduğunu görür, yenidən müharibəyə ümidsiz və ölümün gözünə dik baxan adam kimi qayıdır. Xəyanət səhnəsi o dövr Almaniya həqiqətlərindən biri idi: həyat yoldaşları müharibədə döyüşən zaman bir çox qadının pul qazanmaq üçün üz tutduğu acınacıqlı bir yol!

Andreas Polşaya çatanda o, Olqa adlı polşalı qadınla tanış olur. Olqa müharibədə sevdiklərini itirmiş, həyatdan ümidini üzmüş insandır. Onların qısa görüşü, bir-birinə doğmalığı əsərdə müharibənin içində belə insanlığın və sevginin hələ ölmədiyini göstərir. Amma bu sevgi uzun çəkmir — Andreas cəbhəyə yollanır və ölür. "Qatar vaxtında gəldi" - yəni ölüm gecikmədi mesajını verən yazıçı müharibəyə həsr etdiyi əsərini faciəvi sonluqla bitirir.

"Müharibə qurtaranda" ("Als der Krieg zu Ende war", 1962) hekayəsində isə müharibədən sonrakı problemlər əks olunmuşdur. Hekayə müharibə qurtardıqdan sonra əsir almanların yenidən öz ölkələrinə gətirilməsi ilə başlayır. "Qatar vaxtında gəldi" əsərində olduğu kimi, bu hekayədə də nasismin tənqidi öz əksini tapmışdır. Bu hekayədə nasisizm açıq və qabarıq şəkildə tənqid olunur.

Henrix Böllün yaradıcılığında müharibə yalnız cəbhə səhnələri ilə deyil, insan vicdanında və düşüncəsində gedən görünməz döyüş kimi təsvir olunur. Yazıçı göstərir ki, faşizm və militarizm təkcə insanları öldürmür, həm də onların düşüncəsini, mənəviyyatını zəhərləyir. Əsərdə alman əsirlər arasında ideoloji qarşıdurma ön plana çıxır. Bəziləri, xüsusilə, Yünqerin ideyalarının təsiri altında olanlar, hələ də "şərəf", "vətənpərvərlik", "rütbə" və "nizam-intizam" anlayışlarını nasist təfəkkürü ilə eyniləşdirirlər. Onlar üçün müharibə — bir qəhrəmanlıq meydanıdır. Amma baş qəhrəman bu düşüncə ilə razılaşmır. O, daha müharibənin "şərəfli" və ya "müqəddəs" bir iş olmadığını, əksinə, insan ləyaqətinin alçaldıldığı, mənəviyyatın məhv olduğu bir faciə olduğunu anlayır. Ona "millətçi" anlayışını

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 48-53*

"şərəf" və "sədaqət" kimi anlatmaq istəyirlər. Lakin qəhrəman üçün bu sözlər artıq öz mənasını itirmişdir.

Bu əsərdə də "Müharibə başlayanda" hekayəsindəki kimi obrazın adı verilmir. Yazıçının məqsədi müharibəni ümumiləşdirilmiş obraz ilə tənqid etməkdir.

Əsərdə hadisələr müharibənin son günlərində, Almaniyanın məğlubiyyətindən dərhal sonra cərəyan edir. Hekayənin qəhrəmanı — gənc bir alman əsgəri — uzun illər döyüşdükdən sonra evinə qayıdır, lakin onu qarşılayan gördüyü şəhər deyil, xarabalıq olur. Küçələrin boş, insanların susqun, binaların dağılmış olduğu bir bölgə qəhrəmanın daxilində bir boşluq yaradır. Əsgər öz içində zidd duyğular yaşayır: bir tərəfdən sağ qalmasına sevinir, digər tərəfdən günah və utanc hiss edir. O anlayır ki, müharibə yalnız binaları yox, insan ruhunu da dağıdıb. Qəhrəman üçün müharibənin qurtarması hələ azadlıq demək deyil, çünki o, hələ də keçmişin qorxuları və vicdan əzabı ilə yaşayır. Henrix Böll bu hekayə ilə oxucuya göstərir ki, müharibə top və silahların susması ilə bitmir. Əsl müharibə insanın daxilində — vicdanında, xatirələrində, itkilərinin ağrısında davam edir. Sülh isə yalnız o zaman mümkündür ki, insan öz daxilindəki nifrəti, peşmanlığı və qorxunu məhv etsin. Əsərdəki xarabalıqlar müharibədən çıxmış insanların daxili dağıntısının simvoludur. Sakitlik isə müharibənin yaratdığı dilsiz kədəri ifadə edir. Yazıçı bu bədii vasitələrlə oxucunu düşünməyə vadar edir: bəs əslində müharibə nə vaxt qurtarır — cəbhədə, yoxsa insan qəlbində?

"Loenqrinin ölümü" ("Lohengrins Tod", 1950) hekayəsində müharibə psixoloji fonda tənqid olnur. Hekayədə iki ayağından yaralanmış uşağın xəstəxanada keçirdiyi hisslər ön plana çəkilir.

Ağır yaralı uşaq keyləşdirici iynə vurulduqdan sonra evdə ac-yalavac onu gözləyən qardaşlarını düşünür. Ədib bu əsərdə müharibənin fəlakətlərini, ac qalan və aclıqdan əziyyət çəkən minlərlə ailənin, uşaqların bədbəxt taleyini ustalıqla qələmə alır.

Müharibənin dəhşətlərini dərin hisslərlə, ustalıqla qələm alan Henrix Böll 1939-cu ildən İkinci Dünya müharibəsinin iştirakçısı, 1945-ci ilə qədər isə əsir düşmüşdür. Ona görə də ədibin qələmə aldığı hər süjet canlı tarix idi. "Müharibədən məktublar" əsərində həyat yoldaşına yazdığı məktublar toplanmışdır, müharibənin dəhşətini və mənasızlığını, yaşadığı çətinlikləri və sevdiyi insandan ayrılığın yaratdığı mənəvi iztirabları təsvir edilir. Böllün həyat yoldaşı Annemari uzun illər ərzində onun məktublarındakı yeganə həmsöhbəti olmuşdur; onun sevgisi və mərhəməti sonradan məşhur yazıçı və Nobel mükafatı laureatı olacaq gənc adama ilham və motivasiya vermişdir.

Göründüyü kimi, Böllün qəhrəmanları çox vaxt müharibədən qayıdan əsgərlər, travma yaşamış insanlar və ya müharibə dövründə mənəvi dəyərlərini itirmiş cəmiyyətdən gələn fərdlərdir. Müəllif bəzən, daha çox adsız qəhrəmanlarla əks etdirdiyi əsərlərdə öz prototipini yaradır. Böll qəhrəmanlarını ideallaşdırmır.

Onlar çox vaxt adi, qorxaq, çaşqın, vicdan əzabı çəkən insanlardır. Müharibə onların mənəvi dayaqlarını sındırıb, onları dövlətin və ideologiyanın qurbanlarına çevirmişdir. Böll əsərləri ona görə sevilir ki, dili sadə, lakin emosional yüklü, dərin psixoloji analizlidir. O, müharibənin nəticəsində yaranan dağınıqlar içərisində yenidən mənəvi dirçəliş axtarışında oxucuya yardımçı olur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abdullayeva Y. XX əsr ədəbiyyatında modernizm. Bakı: Mütərcim, 2005, 108 s.
2. Əliyev E. Ədəbiyyat üzrə Nobel mükafatçıları. Bakı: Şərq-Qərb, 2009, 423 s.
3. Haynrix Böll. Hekayələr / tərc.V.Hacıyev. Bakı: Qanun Nəşriyyatı, 2014, 172 s.
4. Haynrix Böll. Seçilmiş əsərləri / tərtibçi və ön sözün müəllifi V.Hacıyev. Bakı: Şərq-Qərb, 2009, 600 s
5. Бёлль Г. Избранное: Сборник / Пер. с нем.; Сост. П.Топера. Москва: Радуга, 1988, 656 с.
6. Стеженский В.И., Черная Л.Б. Литературная борьба в ФРГ: Поиски. Проблемы. Противоречия. М.: Наука, 1987, 430 с.
7. İnternet resursu:https://predanie.ru/book/219755-pisma-s-voyny/
8. https://www.nobelprize.org/prizes/literature/1972/boll/facts/

## СЛЕДЫ ВОЙНЫ В РАССКАЗАХ ГЕНРИХА БЁЛЛЯ

**СЕВИНДЖ МАМЕДОВА**

Генрих Бёлль — одна из известных фигур литературы Германии XX века. Он лауреат Нобелевской премии и известен как писатель, освещавший общественную жизнь Германии. Бёлль боролся за права не только немцев, но и других народов. Его произведения и общественная деятельность способствовали укреплению связей Германии с другими странами. Творчество писателя переведено на 48 языков. В своих произведениях Бёлль с помощью коротких рассказов отражал глубокие социальные и политические проблемы. Основной темой его творчества является война и её воздействие на человеческую психику. В рассказе «Когда началась война» описываются начало Второй мировой войны и ужасающая атмосфера того времени. Друг главного героя Лео представлен как первый погибший солдат. В «Поезд прибывает по расписанию» физические и моральные последствия войны отображены через образ Андреаса. В краткой встрече с польской женщиной Ольгой он ощущает, что человечность ещё не умерла. Однако его возвращение на фронт и смерть создают трагический финал. В рассказе «Когда война закончилась» показаны

последствия войны и жизнь немецких пленных после её окончания. В произведениях Бёлля ясно показана опасность нацизма и вред милитаризма. В рассказе «Смерть Лоэнгрина» отражены страдания детей и семей во время войны. В своих письмах Бёлль описывал бессмысленность войны и боль разлуки с близкими. Герои писателя часто бывают трусливыми, растерянными и испытывающими угрызения совести. Он показывает, что война разрушает моральные устои людей. Язык Бёлля простой, но эмоционально насыщенный и психологически глубокий. Его произведения призывают читателя осмыслить катастрофу войны и искать пути духовного возрождения.

**Ключевые слова:** Генрих Бёлль, война, Вторая мировая война, рассказ, герой

**TRACES OF WAR IN HEINRICH BÖLL'S SHORT STORIES**

**SEVINC MAMMADOVA**

**SUMMARY**

Heinrich Boll is one of the prominent figures of 20th-century German literature. He was a Nobel Prize laureate and is known as a writer portraying Germany's social life. Boll fought for the rights of both Germans and other nations. His works and public activities contributed to strengthening Germany's relations with other countries. His works have been translated into 48 languages. Boll often used short stories to convey deep social and political issues. The main theme of his works is war and its impact on the human psyche. In the story "When the War Began", the beginning of World War II and the terrifying atmosphere of the time are depicted. The protagonist's friend Leo is presented as the first fallen soldier. In the novel "The Train Was on Time", the physical and moral consequences of war are reflected through the character Andreas. In a brief meeting with the Polish woman Olga, he senses that humanity has not yet died. However, his return to the front and his death create a tragic ending. In the story "When the War Ended", postwar destruction and the life of German prisoners are depicted. Boll's works clearly show the dangers of Nazism and the harm of militarism. In the story "Lohengrin's Death", the suffering of children and families during the war is portrayed. In his letters, Boll described the senselessness of war and the pain of separation from loved ones. His characters are often timid, confused, and morally conflicted. He demonstrates that war destroys human moral foundations. Boll's language is simple yet emotionally rich and psychologically deep. His works invite readers to understand the catastrophe of war and seek ways for spiritual recovery.

**Keywords:** Heinrich Boll, war, World War II, short story, character

**Rəyçi: prof. Cəlil Nağıyev**